# Daşı da, torpağı da bərəkətli Daşkəsən

(əvvəli ötən sayımızda)

**Son illər Daşkəsən şəhərinin özü də, ayrı-ayrı qəsəbə və kəndləri də tanınmaz dərəcədə dəyişib, abadlaşıb. Daşkəsən artıq əvvəlki Daşkəsən deyil.**

**"İqtisadi müstəqillik bizim üçün böyük imkanlar açır. Biz iqtisadi müstəqilliyimizi düşünülmüş siyasətlə, aparılan islahatlarla, investisiya siyasətimizlə və regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə təmin etmişik. Əminəm ki, növbəti illərdə bütün şəhər və rayonlarımızda işlər daha da sürətlə gedəcək. Çünki artıq çox möhkəm baza var. İnfrastruktur layihələrinin böyük əksəriyyəti icra edilir. Növbəti illərdə biz sənayenin, kənd təsərrüfatının inkişafı ilə daha çox məşğul olacağıq".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



### *Altundağa su gəlir*

Daşkəsən şəhərinin içməli su təchizatına da ciddi önəm verilir. Rayon İcra Hakimiyyəti ilə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti arasında əldə edilən işbirliyi sayəsində bu sahədə mühüm işlər görülməkdədir. Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası uğurla davam edir. Xatırladaq ki, adıçəkilən layihə Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı layihəsi" çərçivəsində həyata keçirilir.

Bu münasibətlə keçirilən təməlqoyma mərasimində rayon sakinləri, layihəyə cəlb edilən mütəxəssislər və fəhlələr sevinc içərisində idilər. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev ölkə rəhbəri İlham Əliyevin regionların inkişafına böyük diqqət göstərdiyini, Daşkəsənin də bu qayğıdan xeyli yararlandığını diqqətə çatdırıb. Onun sözlərinə görə, dövlət başçısının diqqət və qayğısı nəticəsində son illər Daşkəsəndə sürətli inkişaf müşahidə olunur, yeni infrastruktur yaradılır. İcra başçısı deyir ki, su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin həyata keçirilməsinin Kiçik Qafqaz sıra dağlarının yüksəkliklərində yerləşən Daşkəsən əhalisinin fasiləsiz, ekoloji cəhətdən təmiz içməli su ilə təmin olunmasına, həmçinin Qoşqar çayına axıdılan çirkab sularının qarşısının alınmasına imkan verəcək.

"Azərsu" ASC-nin rəhbərliyi də bu layihəyə ciddi önəm verir. Cəmiyyətin sədri Qorxmaz Hüseynovun sözlərinə görə, "Regionların sosial-iqtisadi inkişafı" Dövlət Proqramına uyğun olaraq bölgələrdə su təchizatı və kanalizasiya infrastrukturu yenidən qurulur və bu işlər rayon mərkəzləri ilə yanaşı, kənd və qəsəbələri də əhatə edir. Prezident İlham Əliyevin ölkəmizin hər bir yaşayış məntəqəsinin 24 saat fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq bu istiqamətdə bölgələrdə genişmiqyaslı işlər həyata keçirilir. "Azərsu" ASC-nin sifarişi ilə 29, ümumilikdə isə 43 şəhər və rayon mərkəzində su və kanalizasiya layihələri icra olunur.

Mütəxəssislərin fikrincə, Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin şəhərinin mövcud turizm potensialının hərəkətə gətirilməsinə və rayonun sosial-iqtisadi inkişafına öz töhfəsini verəcək.



Xatırladaq ki, Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsini 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Daşkəsən şəhərində 16,2 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Bu layihə çərçivəsində gələcəkdə rayonun Alunitdağ və Mədənçilər qəsəbələrinin də içməli su təchizatı yaxşılaşdırılacaq və ümumilikdə 17,8 min sakin bu layihədən faydalana biləcək. Həmin əraziləri keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək üçün mənbə olaraq Qarainək və Gurbulaq bulaqları seçilib. Layihəyə uyğun olaraq su mənbələrindən Daşkəsən şəhərinə 20 kilometr uzunluğunda magistral kəmər çəkiləcək, şəhərin relyefi nəzərə alınmaqla hündür ərazilərdə ümumi tutumu 4500 kubmetr olan dörd ədəd su anbarı tikiləcək və üç ədəd nasos stansiyası quraşdırılacaq. Bütövlükdə isə Daşkəsən şəhərində 18,3 kilometr uzunluğunda paylayıcı su şəbəkəsi yaradılması nəzərdə tutulub. Bunun nəticəsində də 2560 ünvana birləşmə veriləcək və hər bir abunəçi sayğacla təmin olunacaq.

Layihə çərçivəsində, həmçinin Daşkəsən şəhərində kanalizasiya şəbəkəsi də yaradılacaq, bu məqsədlə 13,5 kilometr uzunluğunda kanalizasiya xətti, 410 ədəd kanalizasiya quyusu tikiləcək, 2560 ev birləşməsi veriləcək və tullantı sularının təmizlənib kənarlaşdırılması üçün sutkalıq məhsuldarlığı 3500 kubmetr çirkab sutəmizləyici qurğu tikiləcək. Daşkəsən şəhərində tikinti-quraşdırma işlərinin gələn il başa çatdırılması nəzərdə tutulur.

### *Nazran bulağının seyrinə gəlsən...*

Daşkəsənin təmiz havası, yaşıl meşələri və sərin bulaqları yay aylarında istirahət həvəskarlarının diqqətini cəlb edir. Rayon ərazisindəki Nazran bulağı, Qiblə bulağı, Turşsu bulağı, İdris bulağı, Qayğı bulağı turistlərin ən çox üz tutduqları məkanlardandır. Turizm sektorunun inkişafına ciddi önəm verən rayon rəhbərliyi son illər infrastrukturun yaradılması, xidmət mədəniyyətinin yüksəldilməsi üçün mühüm işlər görməyə nail olub. Bu da Daşkəsənə gələn yerli və əcnəbi turistlərin sayının artmasına gətirib çıxarıb.

Rayon ərazisindəki qədim Alban məbədi nadir tarixi memarlıq abidəsidir. Özgə malına və tarixinə göz dikən ermənilər bu abidə ətrafında da səs-küy yaratmağa çalışıblar. Lakin tarixçi alimlərin, yerli ziyalıların elmi dəlilləri ilə saxtakarlara tutarlı cavab verilib.

Əhmədli kəndindəki məqbərə də turistlərin diqqətini özünə cəlb edir. Xoşbulaq, Zivlən, Zağallı, Bayan, Əmirvar, Dardərə kəndlərində aparılan arxeoloji qazıntılar nəticəsində daş dövrünə aid nümunələr aşkarlanıb.

**Yolunu buralardan salan yerli və əcnəbi turistlər daşı da, torpağı da bərəkətli olan Daşkəsəndən xoş təəssüratla ayrılırlar.**

***Etibar CƏBRAYILOĞLU***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ**